Ədalət.- 2021.- 23 yanvar. S. 5.

# VƏTƏN SİZƏ OĞUL DEDİ

*MAXE Təbriz Alməmmədov*



28.11.1995-ci ildə Sumqayıt şəhərində anadan olan Alməmmədov Təbriz Letman oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 07.11.2020-ci il tarixdə Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub. MAXE Təbriz Alməmmədov Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

*Rəhman Məmmədov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub*



Rəhman Məmmədov 1997-ci il fevralın 13-də Sumqayıt şəhərində anadan olub. Orta təhsilini Sumqayıt şəhərində 13 nömrəli tam orta məktəbdə alıb. R. Məmmədov 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. O, 2016-cı ilin 2-5 aprelində baş verən döyüşlərdə iştrak edib.

Azərbaycan Ordusunun əsgəri olan R. Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlər də daxil olmaqla bir neçə rayon və kəndlərimizin azadlığı uğrunda gedən döyüşlərdə olub. Rəhman Məmmədov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

*İtkin düşən zabitimizin şəhid xəbəri gəldi*



44 günlük Vətən müharibəsində itkin düşmüş daha bir hərbçimizin şəhid olduğu müəyyənləşib.

Bununla bağlı məlumat sosial şəbəkədə yayımlanıb. Bildirilib ki, Quba rayonu 2-ci Nügədi kəndindən olan baş leytenant Mikayılov Rahim Qabil oğlunun 107 gün sonra şəhid xəbəri gəlib.

Qeyd edək ki, 1990-cı il təvəllüdlü R.Mikayılovun adı Müdafiə Nazirliyinin yayımladığı itkin düşmüş hərbçilərin siyahısında yer almışdı.

*XTQ Leytenantı Səfərov Şahmar*



Şərur rayonu Siyaqut kənd Şəhidi XTQ Leytenantı Səfərov Şahmar Nazim oğlu

Murov dağ zirvəsində döyüşərək qəhrəmancasına Şəhidlik zirvəsinə ucalmışdır.

Onun nəşi ailəsinə 52 gün sonra təhvil verilmişdir. 17.11.2020-ci ildə II Fəxri Xiyabanda dəfn edilib.